# 60 yaşımda bu beş-altı saatdakı qədər təbrik eşitməmişdim...



**Allah Sizi qorusun, cənab Ali Baş Komandan! Allah səni hifz etsin, Azərbaycan əsgəri! Allah sənin birliyini, mütəşəkkilliyini əbədi etsin, Azərbaycan xalqı! Bu xəbəri bizə eşitdirən hər kəsə minnətdarıq. Füzulinin işğaldan azad edilməsi xəbəri xalqa çatdırılanda, həm də bunu bilavasitə Ali Baş Komandanın dilindən eşidəndə demək istəyirdim ki, mən ömrüm boyu belə sevincli xəbər eşitməmişdim və eşitməyəcəyəm. Amma demədim. Çünki qabaqda Şuşanın da işğaldan azad edilməsi xəbəri var.**



Füzulidə əsrlər boyu, bəlkə də min ilə qədər tarixdə yaşamış əcdadlarımın – yəni öz şəcərəmizdən olan dədə-babamızın məzarı varsa, Şuşada bütöv Azərbaycanımızın tükənməz mədəniyyət xəzinəsi yaşayır. Bəli, yaşayır, erməni çaqqalları o mədəniyyəti məhv edə bilməzlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 17-də xalqa ünvanladığı müraciətin nəinki hər cümləsi, hətta hər sözü xalqın ürəyindən gəlirmiş kimi dəyərli idi. Möhtərəm Prezidentimizin Füzulinin işğaldan azad edilməsi barədə dediklərinin həmin xəbəri eşitmiş həmyerlilərimin ömrünün son saniyəsinə qədər yadından çıxmayacağını da bilirəm.

Cənab Prezident dedi: “Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib – Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!”

Cənab Ali Baş Komandanımıza geridə qalan 27 ilin hər günü “Füzuli” sözünü təkrar edərək gözləri gah yol çəkən, gah da leysan yağdıran anam başda olmaqla bütün həmyerlilərimin təşəkkürünü, minnətdarlığını çatdırmağın xoşbəxtliyini yaşayıram. Bizim sağ əlimiz kəlbəcərli, laçınlı qardaşlarımızın da başına olsun! Mən inanıram ki, bu komandanımız, bu ordumuz sizin arzuladığınız həmin xəbəri də təmin edəcək, əziz bacı-qardaşlarım. Allah dövlətimizi, ordumuzu, xalqımızı qorusun!

***Vəfa XANOĞLAN,***
***əslən Füzulidən olan sənətşünaslıq üzrə elmlər doktoru***

Xalq qəzeti 2020.- 21 oktyabr.- S.9.